# Ötən il xarici siyasətdə böyük uğurlar qazanmışıq

***Daha bir ili geridə qoyduq. Dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da istər rəsmi dövlət qurumlarında, istərsə də mediada ilin yekunları ilə bağlı müxtəlif xarakterli məqalələr, vidoçarxlar hazırlanır. Biz də bu materiallar əsasında yola saldığımız ilə ötəri nəzər yetiririk. Xatırladaq ki, 2021-ci il respublikamız üçün bir sıra yaddaqalan hadisələrlə əlamətdar oldu. İlin sonuncu günü olan 31 dekabr miladi təqviminin tətbiq edildiyi ölkələrdə yeni ilin gəlişi, köhnə ilin yola salınması kimi qeyd edilsə də, azərbaycanlılar üçün həm də həmrəylik günüdür.***

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edilən Dünya Azərbaycanlılarının Həmrəylik Günü torpaqlarımızın mənfur düşmən tərəfindən işğalından sonra bizim üçün daha fərqli xarakter almış, mahiyyəti dəyişmişdir. Dünyanın 75-dən çox ölkəsində qeyd edilən həmrəylik günü, xalqımızın birliyi, bərabərliyi, eləcə də, bir yumruq kimi birləşməsini ifadə edir. Bizim otuz ilə yaxın müddət ərzində, bəlkə də ən çox ehtiyac duyduğumuz məfhum, məhz elə bu birlik, həmrəylik idi.

Prezident İlham Əliyevin dediyi kimi, xalq bir yumruq kimi birləşirsə, onun qarşısında heç bir qüvvə dayana bilməz. 2021-ci il bizə bir daha göstərdi ki, Vətən müharibəsində liderin ətrafında "dəmir yumruq" kimi birləşən, vahid bir güc kimi hərəkət edən xalqımızın birliyi, bərabərliyi davam edir. Necə deyərlər, "dəmir yumruq" yerindədir. Biz dövlət başçısının istər yerli, istərsə də xarici mediaya etdiyi açıqlamalarda, verdiyi müsahibələrdə bu ifadəni tez-tez eşidir, bir olmağın bizə qazandırdığı gücü yenidən hiss edirik. Belə bir deyim var: "El bir olsa dağ oynadar yerindən". Bu gün bütün dünya birliyin, həmrəyliyin nələrə qadir olduğunu yaxşı dərk edir.

Yeri gəlmişkən, ötən il dekabrın 30-da Xarici İşlər naziri Ceyhun Bayramov ölkə üzrə 2021-ci ilin yekunlarına dair mətbuat buraxılışını təqdim edib. Hesabatda qeyd edilir ki, 2021-ci il ərzində xarici dövlətlərlə strateji tərəfdaşlıq istiqamətində mühüm addımlar atılıb. Belarus, Ukrayna, Özbəkistan, eləcə də, yüksək səviyyəli əməkdaşlıq əlaqələrimiz olan Moldova, Tacikistan və Qırğızıstanla qarşılıqlı əlaqələrimiz genişləndirilib. Həmin ölkələrlə beynəlxalq təşkilatlar çərçivəsində görüşlər əməkdaşlığa töhfə verib.

Bununla yanaşı, ABŞ, Çin və Avropa dövlətləri ilə münasibətlərimiz də diqqət mərkəzində saxlanılmış, bu xüsusda önəmli irəliləyişlər əldə edilmişdir.

İlin yekunları ilə bağlı danışarkən rəsmi rəqəmlərdən, əlçatan məlumatlardan nə qədər qaçmağa çalışsaq da, zənnimizcə, oxucuların bir hissəsi üçün cari il ərzində əldə olunan nəticələri bir daha xatırlamaq, iqtisadi və siyasi tərəqqini konkret faktlarla nəzərdən keçirmək də kifayət qədər maraqlı və məqsədəuyğundur

Məlum olduğu kimi, 2020-ci il sentyabrın 27-də başlanan, 44 gün davam edən və Azərbaycanın parlaq qələbəsi ilə nəticələnən Vətən müharibəsindən sonra torpaqlarımız işğaldan azad edildi. Bu, Azərbaycan xalqının, az qala, bir qərinəlik həsrətinə son qoymaqla yanaşı, həm də ölkəmiz və region üçün yeni reallıqların yaranması mənasına gəlirdi. Beləliklə, 2020-ci ilin sonlarında qazanılmış zəfər növbəti il üçün yeni öhdəliklər demək idi. Bu öhdəliklərin ən önəmlisi işğaldan azad etdiyimiz torpaqlarda görülməli olan bərpa-quruculuq işləri idi. Bu səbəblə, 2021-ci ili ölkəmiz üçün "quruculuq ili" adlandırsaq, yanılmış olmarıq. Əlbəttə, ərazilərin təhlükəsizliyi təmin edildikdən sonra başlanan layihələndirmə və planlama işləri ötən ildə icra mərhələsinə qədəm qoydu. İşğaldan azad edilən ərazilərdə əvvəlcə həyat üçün zəruri olan əsas şəraitin, o cümlədən, təhlükəsizliyin təmin edilməsindən sonra uzun müddət Vətən həsrəti ilə yaşayan, müxtəlif çətinliklərə məruz qalan vətəndaşlarımızın həyat şəraitinin yüksək səviyyədə təmin edilməsi üçün bir sıra addımlar atıldı. Gediş-gəlişi təmin etmək üçün yüksək standartlara uyğun yeni yollar çəkildi, köhnə və istifadəyə yararsız yollar əsaslı təmir edildi. "Böyük qayıdış" mərhələsi, məhz Qarabağa aparan yollardan başlandı. Daha sonra, ermənilər tərəfindən dağıdılan, yerlə-yeksan edilən yaşayış məntəqələri, kəndlər, qəsəbələr həm Qarabağın əvvəlki görkəmini pozmamaq şərtilə, həm də müasir dövrün tələblərinə uyğun şəkildə yenidən layihələndirildi. Bu mənada, xalqımız, xüsusən də uzun illər məcburi köçkün statusu ilə yaşayan vətəndaşlarımız üçün ən önəmli məsələlərdən biri də Prezident İlham Əliyevin obyektlərin açılış və təməlqoyma mərasimlərində şəxsən iştirak etməsi oldu. Bu, onu göstərir ki, dövlətin və xalqın missiyası, sadəcə, Vətən müharibəsi ilə məhdudlaşmır, daha sonrakı mərhələdə də şəxsən Prezidentimizin rəhbərliyi ilə əvvəlki ciddiyəti ilə davam edir.



> ***Xarici siyasətimiz daxili siyasətimizin davamıdır. Bu gün Azərbaycanın xarici siyasəti prinsipiallığı və müstəqilliyi ilə seçilir.***
>
> ***Bunun əsas səbəbi, əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur. Çünki güclü siyasi iradə olmasa, heç bir ölkə müstəqil siyasət apara bilməz. Bu siyasi iradə vardır. Bu siyasi iradə özünü həm daxili, həm xarici siyasət məsələlərində göstərmişdir.***
>
> ***Eyni zamanda, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada da öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

Cari il ərzində ölkəmizdə bütün dünyanı çənginə alan COVID–19 pandemiyası ilə bağlı görülən tədbirlər də öz müsbət nəticəsini verib. Həm 2020-ci, həm də 2021-ci ildə Azərbaycanda bu istiqamətdə görülən işlər ölkə iqtisadiyyatının geriləməsinin qarşısını alıb, vətəndaşların təhlükəsizliyinin və sağlamlığının təminatçısı olub. Fərəhlə qeyd etmək olar ki, bütün dünyada problemin həll edilməsi, dəyən zərərin minimuma endirilməsi üçün ümumi həll yollarının axtarıldığı bir dövrdə Azərbaycanın izlədiyi strategiya digər dövlətlər üçün də nümunə təşkil edib. Prezident İlham Əliyev yüksək tribunalardan peyvəndin dünya üzrə ədalətli paylanması, kasıb dövlətlərin əhalisinin peyvəndə çıxışının təmin edilməsi və varlı ölkələrin ümumi peyvənd ehtiyatlarının böyük hissəsini alaraq digər dövlətləri çətin vəziyyətdə qoyması mövzularında çıxışlar edərək insanlıq üçün ən ülvi məramlardan biri olan bərabərliyi dünyaya təbliğ etmişdir. Ümumiləşdirsək, 2021-ci ildə Azərbaycan pandemiya ilə mübarizədə aparıcı dövlətlərdən biri olmuşdur.

Ötən il pandemiyanın verdiyi zərərə baxmayaraq, ölkə iqtisadiyyatı üçün də uğurlu keçmişdir. Prezident İlham Əliyevin xüsusi tapşırığına əsasən ölkəmizdə qurulmaqda olan Ələt Azad İqtisadi Zonasına xarici sərmayənin cəlb edilməsi üçün XİN və xaricdə akkreditə olunmuş səfirliklərimiz səfərbər olunmuş, birgə fəaliyyət göstərilmişdir. Torpaqlarımızın işğaldan azad edilməsi ilə əldə edilən yeni tranzit imkanları ölkəmizin daim inkişaf etməkdə olan nəqliyyat infrastrukturunun gücləndirilməsinə, potensialın artmasına gətirib çıxardı. Nəticədə Şərq–Qərb, Şimal–Cənub və Cənub–Qərb beynəlxalq nəqliyyat marşrutlarının, eləcə də, bütün Türk dünyası üçün böyük əhəmiyyətə malik olan Zəngəzur dəhlizinin, regional nəqliyyat layihələrinin icrası daha geniş vüsət aldı.

Bununla yanaşı, Cənub Qaz Dəhlizinin istismara verilməsi ilə Azərbaycan 2021-ci ildə İtaliya, Yunanıstan və Bolqarıstana qaz təchiz edərək, ümumilikdə, Avropa İttifaqının enerji təhlükəsizliyinə xüsusi töhfəsini verdi. Ötən il iyulun 6-15-də keçirilən BMT-nin Dayanıqlı İnkişaf üzrə 2021-ci il Yüksək Səviyyəli Siyasi Forumunda Azərbaycan növbəti könüllü milli icmalını təqdim etdi.

Azərbaycan həm də dünyanın multikulturalizm mərkəzlərindən biridir. 2021-ci ildə də bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilmiş, bu sahə respublikamızın daxili və xarici siyasətində öz xüsusi yerini tutmuşdur. Xalqlar və mədəniyyətlər arasında dialoqu inkişaf etdirmək, dünya üzrə davamlı sülhü təmin etmək üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə başlanan "Bakı prosesi" çərçivəsində 2021-ci ildə Azərbaycan beynəlxalq səviyyədə humanitar yardım və inkişafa dəstəyini davam etdirmişdir. Bu mənada, qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi – AİDA-nın əlaqələndirilməsi ilə İndoneziya, Xorvatiya, Sent-Vinsent və Qrenadini humanitar yardım, eləcə də, Türk Dövlətləri Təşkilatı xətti ilə Burkina-Fasoya COVID–19 əleyhinə peyvənd göndərilmişdir.

Ümumiyyətlə, xarici siyasət istiqamətində görülən işlər nəticəsində bir çox ölkə ilə ikitərəfli və çoxşaxəli əlaqələrimiz möhkəmləndirilmiş, yeni əlaqələr yaradılmışdır. İkitərəfli münasibətlərin inkişafından danışarkən Türkiyə ilə olan əməkdaşlığın yeni mərhələsindən bəhs etmək yerinə düşərdi. Bu baxımdan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın il ərzində iki dəfə ölkəmizə, xüsusən də işğaldan azad eidlmiş ərazilərə səfərə gəlməsi, imzalanan Şuşa Bəyannaməsini xüsusi qeyd etmək lazımdır.

2021-ci ildə Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi davam etmişdir. Qoşulmama Hərəkatına sədrlik Azərbaycanın dünya miqyasında qazandığı nüfuzun təzahürüdür. Koronavirus pandemiyasının ilk günlərindən bütün dünyanı bu bəlaya qarşı bir olmağa çağıran Azərbaycan problemin həllinə dair təşəbbüskar ölkələrdən biri oldu. Bu mənada, ötən ilin mart ayında BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID–19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı yeni qətnamə qəbul edilmişdir.

Bütün bunlara istinadən 2021-ci ilin ölkəmiz üçün davamlı inkişaf istiqamətində yekunlaşdığını söyləyə bilərik. Ümid edirik ki, bundan sonrakı illər geridə qoyduğumuz illərdən də uğurlu, bərəkətli olacaq.

***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti 2022.- 9 yanvar.- S.3.